

Vəli Qaraçaylı

## QOCA PALID

Çox illərin sınağına,
Sinə gəlib qoca palıd.
Tufanları, boranları,
Gözü görüb qoca palıd.

Günəş alov püskürəndə,
Ətrafına kölgə salıb.
Qəddarlığın baltasının,
Gövdəsində izi qalıb.

Yetirdiyi pöhrəsini,
Boy atmamış sındırdılar.
Qurumağa qoymadılar,
Elə yaş-yaş yandırdılar!

Keçmişinə nəzər salıb,
Gələcəyə baxan palıd!
Dərdlər çəkib ürəyindən,
Qara qanlar axan palıd.

Meşələri qorumasaq,
Gur bulaqlar olmayacaq.
Gələcəyə göstərməyə,
Pöhrə palıd qalmayacaq!

## RAHAT YANACAM

İşıqlı dünyada zülmət görmüşəm,
Qaranlıq dünyadan qorxum yox mənim.
Ömürlük dərd-qəmə yoldaş olmuşam,
Haqsızlıq bəxtimə kəsilib qənim.

Nadanlıq görmüşəm hər addım başı,
Bir gündə yüz dəfə qaralıb qanım.
Namərdin fitnəsi oyub qəlbimi,
Ağrıyıb ürəyim, ağrıyıb canım

Babamız Adəm tək qara torpaqdan,
Yoğrulub dünyaya gəlmişəm mən də.
Ömür karvanımı çəkib gedəcəm,
Torpağa dönəcəm günün birində.

Vəliyəm, dünyada çəkdiyim dərdə,
Əbədi dünyada sevinc qatacam,
Riyadan, böhtandan uzaq olacam,
Torpağa qovuşub rahat yatacam.

## AZƏRBAYCAN

Azərbaycan, ana Vətən,
Səndən yazmaq necə çətin.
Sənə ana deyən övlad,
Doğulub mərd, olub mətin.

Tanrı səni yarandanda,
Qismətini bol veribdi.
Zirvələri fəth etməyə,
Qanad verib, qol veribdi.

Bu gün sənin qanadların,
Namərdliklə qırılıbdı.
Övladların məlhəm qoyub,
Yaraların sarınıbdı.

Qarabağı qaytaranda,
Sağalacaq yaraların.
Birləşəcək torpağına
O kəsilən paraların.

Düşmənlərin qoy eşitsin,
Tomrislərin anasısan.
Sən ki, yanar bir torpaqsan,
Yandıqca hey yanasısan.

Uğrunda ər igidlərin,
Tökübdü qan, veribdi can.
Sən dahilər vətənisən,
Azərbaycan, Azərbaycan!!!

## DƏDƏ

Sən gördüyün o zəmanə,
Artıq ölüb, keçib, Dədə.
Sən gördüyün ər kişilər,
Bu dünyadan köçüb, Dədə.

Hər gün ömrün bir anıdı,
Cavanların meydanıdır.
Cavanlıq ömrün şanıdı,
Şöhrəti dost seçib, Dədə.

Nadanlardan olmaz həmdəm,
Şair Vəli çəkir dərd-qəm.
Qoldan zorlu, ağıldan kəm,
Şöləsini saçıb, Dədə!

## ÇALIŞ, OĞUL

*(Oğlum Yusifə)*

Tanrı görür əməlini,
Ağa qara demə, oğul.
Ac-yalavac qalsan belə,
Haram tikə yemə, oğul.

Zəhmətinlə ruzi qazan,
Heç bir kəsə boyun əymə.
Allah sənə fürsət versə,
Qəlb sevindir, qəlbə dəymə.

Qanadları sınıq quşun,
Qanadını sarıyan ol.
Kimsəsizin, köməksizin,
Qolundan tut, yarıyan ol!

Bir kibriti məsrəf edib,
Əbəs yerə yandırma sən.
Cahillərin gözü ilə,
Kamilləri sındırma sən.

Korun-korun tüstülənmə,
Alovlanıb alış, oğul.
Dünya fani, ömür qısa,
Boş oturma, çalış, oğul!

## BAHAR GƏLƏNDƏ

İnsanın damarda qaynayır qanı,
Şaxtalar dayanır bahar gələndə.
Torpaq nəfəs alır, quş yuva qurur,
Təbiət oyanır bahar gələndə.

Bənövşə boylanır kolun dibindən,
Bahar müjdəsini yetirir bizə!
Baharın elçisi xoş ətir saçır,
Bahar təravəti gətirir bizə.

Dağların döşünün əriyir qarı,
Çöllər yaşıl geyir, çəmən gül açır.
Güllərin üstünə qonan bülbüllər,
Elə oxuyur ki, daşlar dil açır.

Zərif əlləriylə dəstə bağlayıb,
Qızlar çələng hörür güldən, çiçəkdən.
Arılar tələsir busə almağa,
Qönçəsi açılmış şehli ləçəkdən.

Baharda cücərir, baharda bitir,
Vəlinin qəlbində arzu, diləyi.
Cənnət deyiləndə gözü önünə,
Baharı gətirir şair ürəyi.

## ATA

Sən mənə var-dövlət miras saxlama,
Ver qara torpağı qoy əkim, ata.
Əmanət et mənə ana vətəni,
Yükünü çiynimdə hey çəkim, ata.

Bağ salım, bağımın bağbanı olum,
Əkdiyim ağacın barını dərim.
Çəkim keşiyini həyatım boyu,
Dar gündə, çətində sinəmi gərim.

Sən mənə torpaq ver aranlı, dağlı,
Yayda buz bulaqlı yaylağım olsun.
Sən mənə torpaq ver köhlən çapmağa,
Mənim də cıdırım, oylayım olsun.

Sən mənim belimə bağla qılıncı,
Sənin harayına hay verim, ata.
Sən mənə torpaq ver Türküstan boyda,
Mən də öz oğluma pay verim, ata!

## PAYIZIN GƏLİŞİ

Payızın gəlişi kövrəltdi məni,
Soldurdu yamyaşıl çölü, çəməni.
Sünbüllər dənləndi, zəmi saraldı,
Buludlar kişnədi, göylər qaraldı.

Payızın təbiət qanunları var,
Yaşıl paltarını soyundu çinar.
Minib yel atını səyritdi rüzgar,
Əsdikcə üşüdü çılpaq ağaclar.

Budaqda qalmadı bir dənə yarpaq,
Xəzəl yorğanına büründü torpaq.
Təbiət işini yaxşı bilirdi,
Bilirdi, amansız bir qış gəlirdi.